BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Azərbaycan-Türkiyə müttəfiqliyi: Geosiyasi tamamlayıcılıq və regional təhlükəsizlik arxitekturasında strateji model


Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


APREL 2026

## Azərbaycan-Türkiyə müttəfiqliyi: Geosiyasi tamamlayıcılıq və regional təhlükəsizlik arxitekturasında strateji model

- **Azərbaycan-Türkiyə münasibətləri yalnız ortaq etnik və mədəni bağlara deyil, həm də üst-üstə düşən geosiyasi və strateji maraqlara əsaslanan unikal müttəfiqlik modelidir;**
- **“Bir millət, iki dövlət” konsepsiyası bu münasibətlərin ideoloji əsasını təşkil etməklə yanaşı, praktik siyasətdə də koordinasiyalı fəaliyyətin formalaşmasına zəmin yaradır;**
- **Enerji, nəqliyyat və təhlükəsizlik sahələrində əməkdaşlıq Azərbaycan-Türkiyə tərəfdaşlığını regional və qlobal səviyyədə təsir gücünə malik strateji ittifaqa çevirir;**
- **Müasir beynəlxalq münasibətlər sistemində artan qeyri-müəyyənlik fonunda bu müttəfiqlik yalnız ikitərəfli deyil, həm də regional sabitliyin qorunmasında əsas dayaqlardan biri kimi çıxış edir.**

Azərbaycan-Türkiyə münasibətləri müasir beynəlxalq münasibətlər sistemində nadir strateji tərəfdaşlıq nümunələrindən biri kimi çıxış edir. Bu müttəfiqliyin əsasını təşkil edən amillər yalnız dərin tarixi, mədəni və etnik bağlara söykənməklə məhdudlaşmır, eyni zamanda geosiyasi və digər maraqların üst-üstə düşməsinə əsaslanır. “Bir millət, iki dövlət” konsepsiyası bu münasibətlərin mahiyyətini ifadə edən fundamental ideoloji çərçivədir. Etnik soykök birliyi, ortaq dil, din və mədəni dəyərlər Azərbaycan və Türkiyə arasında münasibətləri digər dövlətlərarası əlaqələrdən fərqləndirir. Bununla yanaşı, hər iki dövlətin regional və qlobal səviyyədə təhlükəsizlik, enerji, nəqliyyat və iqtisadi əməkdaşlıq sahələrində maraqlarının əsasən üst-üstə düşməsi bu müttəfiqliyi daha da möhkəmləndirir. Bu baxımdan, dəyərlər və maraqlar sintezi Azərbaycan-Türkiyə münasibətlərinin təbii və davamlı xarakterini təmin edir. Burada qeyd etmək yerinə düşər ki, Prezident İlham Əliyev dəfələrlə

vurğulamışdır ki, Türkiyə Azərbaycan üçün qardaş, müttəfiq dövlətdir[1] və bu müttəfiqlik regionda sabitliyin əsas sütunlarından biridir. Həmçinin, müasir təhlükəsizlik nəzəriyyələrindən biri olan "təhlükəsizlik icması" (security community) yanaşması prizmasından baxdıqda, Azərbaycanın və Türkiyənin münasibətlərində qarşılıqlı etimadın, ortaq təhlükə qavrayışının və koordinasiya edilmiş davranışın möhkəmlənməsi bu müttəfiqliyin təkcə siyasi bəyanatlar deyil, praktiki institusional mexanizmlər vasitəsilə də dərinləşdiyini təsdiqləyir[2].

**Azərbaycan - Türkiyə müttəfiqliyinin möhkəmlənməsində hər iki ölkənin geosiyasi mövqeyi ciddi rol oynayır.** Azərbaycanın geosiyasi mövqeyi onu Avrasiya məkanında mühüm tranzit və enerji qovşağına çevirir. Bu kontekstdə Türkiyə Azərbaycanın Qərbə açılan əsas qapılarından biridir. Azərbaycan enerji resurslarının dünya bazarlarına çıxarılmasında Türkiyə üzərindən keçən marşrutlar - xüsusilə TANAP və BTC kimi layihələr - strateji əhəmiyyət daşıyır. Eyni zamanda, Azərbaycanın geosiyasətində Türkiyənin yeri iki amillə də xarakterizə olunur : regional güc mərkəzi kimi siyasət və təhlükəsizlik kontekstində. Bu funksional kombinasiyanın mahiyyəti odur ki, Türkiyə Azərbaycan üçün yalnız "qardaş ölkə" deyil, həm də regional güc balansında sabitləşdirici amildir.

Digər tərəfdən, Türkiyə üçün Azərbaycan yalnız enerji tərəfdaşı deyil, həm də Cənubi Qafqazda əsas siyasi dayaqlardan biridir. Cənubi Qafqazın aparıcı dövləti ilə müttəfiqlik Türkiyənin regional təsirini artırır. Azərbaycan Türkiyə ilə həm də Türk dünyası, xüsusilə Mərkəzi Asiya (Türküstan) arasında körpü rolunu oynayır. Bu, Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın genişlənməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın Türkiyə ilə Türküstan (Mərkəzi Asiya) arasındakı "körpü" rolu isə həm siyasi, həm də nəqliyyat-logistika məzmununa malikdir. Siyasi müstəvidə, Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiya gündəliyinin aparıcı mövzuları (ortaq mövqelər, koordinasiya, təhlükəsizlik və iqtisadi əməkdaşlıq)

---

1 https://president.az/en/articles/view/50795

2 https://gsd.msu.edu.tr/Content/sayilar/dokuman/GSD_49/GSD_49_Art_6_122024.pdf

Naxçıvan sazişində ətraflı təsbit edilir[3]. Logistika müstəvisində isə Bakı-Tbilisi-Qars xətti (BTQ) və daha geniş "Orta Dəhliz" narrativi Azərbaycanı Asiya-Avropa tranzitinin kritik əlaqələndiricisinə çevirir və bu həm də elmi-analitik ədəbiyyatda "Şərq-Qərb nəqliyyat dəhlizi"nin əsas dayaqlarından biri kimi izah olunur. Perspektivdə TRİPP layihəsinin (Zəngəzur dəhlizi) reallaşması Türkiyə üçün Azərbaycanın logistik əhəmiyyətini daha da artıracaq. Beləliklə, qarşılıqlı geosiyasi tamamlayıcılıq Azərbaycan-Türkiyə müttəfiqliyinin funksional əsasını təşkil edir.

**Müttəfiqliyin institusionallaşması (xronoloji ardıcıllıqla)**

Azərbaycan-Türkiyə münasibətlərinin müttəfiqlik mərhələsinə keçidi ardıcıl hüquqi və institusional addımların məhsuludur. Bu ardıcıllığın əsas başlanğıc nöqtələrindən biri 2010-cu ildə imzalanmış strateji tərəfdaşlıq və qarşılıqlı yardım sazişidir: sazişdə tərəflərin bir-birinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını qorumaq üçün sıx əməkdaşlıq edəcəyi, habelə üçüncü tərəfdən silahlı təcavüz halında BMT Nizamnaməsinin 51-ci maddəsi çərçivəsində qarşılıqlı yardım göstərəcəyi qeyd edilir[4]. Bu, münasibətləri "təhlükəsizlik təminatı" məntiqi ilə bağlayan fundamental hüquqi bazadır.

Müttəfiqliyin institutlaşma xətti 2010-cu ildə yüksək səviyyəli strateji əməkdaşlıq mexanizminin qurulması ilə siyasət koordinasiyasını da sistemləşdirir. Mexanizmin məqsədi iki ölkə arasında siyasi dialoqun, sektorlar üzrə koordinasiyanın və strateji qərarların mütəmadi olaraq idarə olunmasıdır. Enerji sahəsində institusionallaşmanın mühüm "maddi dayağı" kimi Cənub Qaz Dəhlizi ardıcıllığı xüsusi yer tutur: 2018-ci ildə dəhlizin açılış mərasiminin keçirilməsi[5] və layihənin Azərbaycanda rəsmi şəkildə işə salınması enerji əməkdaşlığını strateji gündəliyin mərkəzinə çıxarmışdır. Ardınca 2020-ci ilin sonlarında Trans Adriatik xəttində kommersiya əməliyyatlarının başlaması və Xəzər qazının Avropa bazarına çatdırılması

---

[3] https://www.turkicstates.org/u/d/basic-documents/nakhchivan-agreement-on-the-establishment-of-the-copperation-council-of-turkic-speaking-states-1-en.pdf
[4] https://e-qanun.az/framework/21158
[5] https://minenergy.gov.az/az/qaz/cenub-qaz-dehlizi-layihesinin-icrasi-ve-layihenin-regional-qarsiliqli-tesirleri

bu dəhlizin geosiyasi təsir gücünü artırmış, Azərbaycan-Türkiyə enerji koordinasiyasını Avropa enerji təhlükəsizliyi müstəvisinə daşımışdır.

Son illərdə Azərbaycan-Türkiyə münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi bu müttəfiqliyin real siyasi və hərbi məzmununu açıq şəkildə nümayiş etdirdi. Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək müharibənin nəticələrinə mühüm təsir göstərən amillərdən biri oldu. Müharibədən sonra regionda formalaşan yeni geosiyasi reallıqlar iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsini şərtləndirdi. **Bu kontekstdə 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi xüsusi əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə arasında münasibətləri rəsmi olaraq müttəfiqlik səviyyəsinə yüksəltdi.** Sənəddə təhlükəsizlik, müdafiə, iqtisadiyyat, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur. Eyni zamanda, tərəflərdən birinə qarşı təhdid olduğu halda qarşılıqlı dəstək mexanizmi də bu sənəddə öz əksini tapmışdır. Ümumiyyətlə, Bəyannamənin təhlükəsizlik arxitekturası baxımından əsas "konstruktiv yeniliyi" mümkün təhdid və ya üçüncü dövlət tərəfindən aqressiya halında birgə məsləhətləşmələrin aparılması və zəruri yardımın göstərilməsi mexanizminin açıqlanmasıdır. Bu məntiq 2010 sazişindəki qarşılıqlı yardım anlayışı ilə üst-üstə düşür və Şuşa sənədində daha geniş sektor koordinasiyası (o cümlədən təhlükəsizlik şuralarının müntəzəm görüşləri) ilə tamamlanır. Həmçinin, müdafiə sahəsində sənəd bir neçə strateji xətti paralel aparır: silahlı qüvvələrin modernləşdirilməsi üçün birgə səylər, şəxsi heyət mübadiləsi, birgə təlimlər, hərbi-texniki əməkdaşlıq, müdafiə sənayesi üzrə birgə layihələr və istehsal imkanlarının inkişafı. Burada diqqət çəkən məqam ondan ibarətdir ki, müttəfiqlik yalnız "operativ koordinasiya"nı deyil, "texnoloji suverenlik"ə (müdafiə sənayesi, tədqiqat-istehsal, texnoloji mübadilə) yönəlmiş uzunmüddətli hədəfləri də əhatə edir. Şuşa Bəyannaməsi enerji və nəqliyyat komponentlərini də "müttəfiqlik" məntiqinə daxil edir: Cənub Qaz Dəhlizi üzrə koordinasiya, regionun enerji təchizatı təhlükəsizliyinin artırılması, Şərq-Qərb Nəqliyyat Dəhlizinin rəqabət qabiliyyətinin

yüksəldilməsi və xüsusən də Azərbaycanla Türkiyəni Naxçıvan üzərindən bağlayacaq dəhlizin (Zəngəzur dəhlizi) açılmasının əhəmiyyəti ayrıca vurğulanır. Bu, 2020 - ci ildən sonra formalaşan reallıqlarda "təhlükəsizlik-inteqrasiya" əlaqəsini praktik gündəlik kimi təqdim edir.

**Nəhayət, sənədin mühüm siyasi mesajlarından biri "müttəfiqlik əməkdaşlığının üçüncü dövlətlərə qarşı yönəlməməsi" tezisidir.** Bu müddəa, müttəfiqliyin regional güc balansında sabitləşdirici rolunu icra edərkən eyni zamanda eskalasiya risklərini azaltmağı hədəflədiyini göstərir və Azərbaycanın balanslı xarici siyasət xətti ilə üst - üstə düşür.

**Müttəfiqliyin regional təhlükəsizliyə, geosiyasi tarazlığa təsirləri**

Azərbaycan-Türkiyə müttəfiqliyi yalnız ikitərəfli münasibətlər çərçivəsində deyil, daha geniş regional və qlobal kontekstdə də mühüm rol oynayır. Son illərdə Yaxın Şərqdə və ümumilikdə Avrasiya məkanında müşahidə olunan geosiyasi transformasiyalar fonunda bu əməkdaşlıq təhlükəsizlik və sabitlik üçün vacib faktor kimi çıxış edir. **Azərbaycanın balanslı və rasional xarici siyasəti regionda gərginliklərin azalmasına xidmət edir.** Bakı müxtəlif güc mərkəzləri arasında tarazlığı qorumağa çalışaraq, əməkdaşlıq platformalarının formalaşmasına töhfə verir. Türkiyə ilə koordinasiyalı fəaliyyət bu siyasətin effektivliyini artırır. Bu müttəfiqlik xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat dəhlizlərinin inkişafı və regional iqtisadi inteqrasiya baxımından mühüm nəticələr doğurur.

Cənubi Qafqaz təhlükəsizlik kompleksində Azərbaycan-Türkiyə müttəfiqliyinin pozitiv təsirləri bir neçə istiqamətdə özünü göstərir. Ən əsası, qarşılıqlı yardım və müdafiə koordinasiyası regionda "qeyri-müəyyənlik zolağı"nı daraldır: potensial eskalasiya situasiyalarında tərəflərin məsləhətləşmə və koordinasiya mexanizmlərini istifadə etməsi çəkindiricilik məntiqini gücləndirir. Daha dəqiq desək hər iki ölkənin müttəfiqliyi regiona kənar neqativ təsirləri neytrallaşdıran güc kimi çıxış edir. Xüsusilə postmünaqişə dövründə Azərbaycanın təşəbbüsləri və Türkiyənin dəstəyi regionda əməkdaşlıq imkanlarını genişləndirir. Bu müttəfiqlik həm də regional

layihələrin həyata keçirilməsində əsas hərəkətverici qüvvədir. Azərbaycan-Türkiyə müttəfiqliyi Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına da müsbət təsir göstərir. Türkiyənin regionda konstruktiv mövqeyi və Azərbaycanın sülh təşəbbüsləri yeni kommunikasiya xəttlərinin açılması və iqtisadi əməkdaşlığın genişlənməsi üçün zəmin yaradır. Bu proseslər uzunmüddətli perspektivdə Cənubi Qafqazda davamlı sülhün təmin olunmasına xidmət edə bilər.

Müasir beynəlxalq münasibətlər sistemində qeyri-müəyyənliyin artması, regional münaqişələrin davam etməsi və böyük güclər arasında rəqabətin güclənməsi Azərbaycan-Türkiyə müttəfiqliyinin daha da dərinləşdirilməsini zəruri edir. Xüsusilə təhlükəsizlik sahəsində əməkdaşlıq prioritet istiqamətə çevrilmişdir. Birgə hərbi təlimlər, müdafiə sənayesi sahəsində əməkdaşlıq və strateji koordinasiya iki ölkənin təhlükəsizlik arxitekturasını gücləndirir. Bu baxımdan, müttəfiqlik yalnız mövcud reallıqlara cavab deyil, həm də gələcək risklərə qarşı preventiv mexanizm kimi çıxış edir. Fikrimizcə, təhlükəsizlik kontekstində dərinləşmə perspektivi praktik olaraq üç istiqamətdə daha sürətli inkişaf edə bilər. Birincisi, təhlükəsizlik planlaşdırması və məsləhətləşmələr: təhdid qiymətləndirməsi, böhran idarəçiliyi, sərhəd təhlükəsizliyi və müştərək əməliyyat uyğunluğu (interoperability) kimi sahələrdə institusional ritmin artırılması Şuşa sənədinin məntiqinə tam uyğundur[6]. İkincisi, müdafiə sənayesi və texnologiya: birgə istehsal, tədqiqat və təchizat zəncirlərinin lokallaşdırılması müttəfiqliyin “özünəyetərlilik” səviyyəsini artırır. Üçüncüsü, kritik infrastrukturun (enerji-nəqliyyat) qorunması: boru kəmərləri, dəmir yolu xətləri və terminalların fiziki və kibertəhlükəsizliyi üzrə koordinasiya müttəfiqliyin geoiqtisadi dayanıqlığını yüksəldir.

**Azərbaycan-Türkiyə münasibətlərinin davamlılığını təmin edən əsas amillərdən biri də tərəflərin bir-birinin milli maraqlarına həssas yanaşmasıdır.** Hər iki dövlət strateji qərarların qəbulunda qarşılıqlı koordinasiyaya üstünlük verməklə

[6] https://sovereignty.preslib.az/en/page/4edGsg2

bərabər bəzi (çox az) məsələlərdə də meydana çıxan fərqli yanaşmalara da anlayışla, dözümlü yanaşırlar. Bu baxımdan, üçüncü tərəflərin təsiri və ya daxili ictimai rəydə formalaşdırılan manipulyativ yanaşmalar bu müttəfiqliyə xələl gətirə bilməz və yaxud gətirməməlidir. İlk növbədə o səbəbdən ki, münasibətlər yalnız siyasi deyil, həm də dərin ictimai və mənəvi təmələ söykənir.

Bununla belə, onu da qeyd etməyə ehtiyac var ki, son zamanlar Türkiyə daxilində bəzi siyasi qrupların, media orqanlarının, ayrı – ayrı ictimai şəxslərin anti – Azərbaycan fəaliyyəti diqqəti cəlb edib. Bu qruplar xüsusilə İran ətrafında vəziyyətin gərginləşməsi fonunda xeyli fəallaşıblar və onların əsas hədəfi Azərbaycanın milli maraqlara əsaslanan müstəqil xarici siyasəti, bir çox vacib məsələlərlə bağlı nümayiş etdirdiyi qəti, prinsipial mövqeyidir. Xüsusilə, dini – siyasi görüşləri ilə seçilən bəzi radikal qüvvələrin ixtiyarlarında olan media və yaxud sosial media resursları üzərindən Azərbaycana qarşı siyasi - ideoloji həmlələrini artırdığı müşahidə edilib. Bu qrupların qeyd olunan fəaliyyətində ən çox istifadə etdikləri vasitə Azərbaycanla bağlı heç bir əsası olmayan saxta xəbərlərin yayılmasıdır. Bununla da onlar rəsmi Bakının ayrı – ayrı məsələlərlə bağlı nümayiş etdirdiyi davranış haqda Türkiyə ictimai fikrində mənfi rəyin yaranmasına çalışırlar. Burada daha bir diqqət çəkən məqam qardaş ölkə daxilində anti – Azərbaycan fəaliyyəti göstərən bir sıra mərkəzlərin xarici təsirlərə açıq olmasıdır. Daha dəqiq desək bu qrupların müəyyən xarici ölkələrə siyasi - ideoloji və yaxud digər bağlılığıdır. Görünən odur ki, bu qüvvələrin Azərbaycan əleyhinə fəaliyyət göstərməsində xarici təsir amili ciddi rol oynayır. Onu da əlavə edək ki, xarici təsir altında olan qrupların fəaliyyəti belə düşünməyə əsas verir ki, bu qüvvələrin yeganə hədəfi yalnız Azərbaycan deyil, həm də Azərbaycan – Türkiyə müttəfiqliyi və bu müttəfiqliyin regionda yeni güc formalaşdırmasıdır. Hər iki ölkənin müttəfiqliyinin bölgədə geosiyasi balansı dəyişməsini və bu istiqamətdə əldə etdiyi uğurları xarici təsir altında olan qüvvələrin anti - Azərbaycan fəaliyyətinin əsas səbəblərindən biri kimi qəbul etmək olar.

Bütün bunlara baxmayaraq onu da xüsusi olaraq vurğulayaq ki, Türkiyənin daxili ictimai rəyi ilə bağlı bəzi neqativ məqamlar (Azərbaycana qarşı) iki ölkə arasında müttəfiqlik münasibətlərinə hər hansı formada təsir göstərməyib. Əvvəldə də deyildiyi kimi, bunun əsas səbəbi qarşılıqlı münasibətlərin dərin ictimai, mənəvi təmələ əsaslanmasıdır. Eyni zamanda hər iki dövlətin bu kimi neqativ təsirlərə, tendensiyalara rasional, adekvat davranışı və reaksiyası da Azərbaycan – Türkiyə müttəfiqliyini sarsıtmağa çalışan qüvvələrin fəaliyyətini nəticəsiz, uğursuz edir. Bu kontekstdə bir vacib məqamı da qeyd edək ki, son zamanlar hər iki ölkənin dövlət orqanları xüsusilə mediada dezinformasiyalarla mübarizə məqsədi ilə ciddi addımlar atırlar. Buna misal olaraq bir müddət əvvəl Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi ilə Türkiyə Respublikası İletişim Başkanlığı arasında Media Platformanın qurulmasını qeyd etmək olar[7]. Ümummiyyətlə, bu mövzuda son olaraq onu da qeyd edək ki, Türkiyə daxilində Azərbaycanla bağlı saxta, neqativ xəbərlər, fikirlər ictimai rəyə ciddi təsir göstərmir. Bütövlükdə, Türkiyə toplumu Azərbaycanı ən yaxın, qardaş dövlət hesab edir və ölkənin ictimai – siyasi mühitində Azərbaycanı haqsız hücumlardan müdafiə edən xeyli sayda ciddi siyasi qüvvələr, ictimai təşkilatlar, media orqanları mövcuddur.

## Nəticə

Nəticə olaraq qeyd etmək olar ki, Azərbaycan-Türkiyə müttəfiqliyi klassik dövlətlərarası əməkdaşlıq çərçivəsini aşaraq çoxölçülü və institusional əsaslara malik strateji model kimi formalaşmışdır. Bu modelin əsas fərqləndirici xüsusiyyəti ondadır ki, o, həm dərin tarixi-mədəni yaxınlığa, həm də rasional geosiyasi və geoiqtisadi maraqların uzlaşmasına əsaslanır. Bu sintez münasibətlərin davamlılığını təmin edən əsas struktur amil kimi çıxış edir. Xüsusilə son illərdə baş verən regional transformasiyalar və İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar

[7] https://media.gov.az/azerbaycan-respublikasinin-medianin-inkisafi-agentliyi-ile-turkiye-prezidenti-administrasiyasinin-ictimaiyyetle-elaqeler-departamenti-arasinda-anlasma-memorandumu-imzalanib/

bu müttəfiqliyin praktik əhəmiyyətini daha aydın şəkildə ortaya qoymuşdur. Türkiyənin Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək, eyni zamanda müharibədən sonrakı dövrdə əməkdaşlığın daha da genişlənməsi müttəfiqliyin yalnız deklarativ xarakter daşımadığını, real güc və təsir potensialına malik olduğunu sübut etmişdir. Şuşa Bəyannaməsi ilə münasibətlərin rəsmi müttəfiqlik səviyyəsinə yüksəlməsi isə bu əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçidini təmin etmişdir. Bu sənəd yalnız təhlükəsizlik sahəsində qarşılıqlı yardım mexanizmlərini möhkəmləndirmir, eyni zamanda iqtisadi, enerji və nəqliyyat sahələrində inteqrasiyanın dərinləşdirilməsi üçün uzunmüddətli strateji çərçivə yaradır. Beləliklə, Azərbaycan-Türkiyə münasibətləri artıq yalnız regional deyil, Avrasiya miqyasında geosiyasi proseslərə təsir edən mühüm faktor kimi çıxış edir.

Digər mühüm məqam ondan ibarətdir ki, bu müttəfiqlik regionda sabitlik və təhlükəsizlik üçün "çəkindirici balans" rolunu oynayır. Qarşılıqlı etimad, koordinasiya və ortaq təhlükə qavrayışı potensial risklərin idarə olunmasını asanlaşdırır və eskalasiya ehtimallarını azaldır. Eyni zamanda, enerji layihələri və nəqliyyat dəhlizləri vasitəsilə formalaşan əməkdaşlıq regional iqtisadi inteqrasiyanı təşviq edir və qarşılıqlı asılılıq yaradır ki, bu da uzunmüddətli sülh üçün mühüm zəmin hesab olunur. Perspektiv baxımından, Azərbaycan-Türkiyə müttəfiqliyinin inkişafı üç əsas istiqamətdə daha da dərinləşə bilər: təhlükəsizlik və müdafiə sahəsində institusional koordinasiyanın artırılması, müdafiə sənayesi və texnologiya sahəsində birgə istehsalın genişləndirilməsi, həmçinin enerji və nəqliyyat infrastrukturlarının təhlükəsizliyinin təmin olunması. Bu istiqamətlər üzrə əməkdaşlığın güclənməsi müttəfiqliyin yalnız mövcud reallıqlara cavab verməsini deyil, həm də gələcək çağırışlara qarşı dayanıqlı mexanizmə çevrilməsini təmin edəcəkdir.

Yekun olaraq belə qənaətə gəlmək olar ki, Azərbaycan-Türkiyə münasibətləri müasir beynəlxalq münasibətlər sistemində nadir strateji tərəfdaşlıq nümunəsi olmaqla yanaşı, regionda sülh, sabitlik və inkişaf üçün mühüm platforma rolunu oynayır. Bu müttəfiqlik yalnız iki dövlətin milli maraqlarını təmin etmir, eyni zamanda

daha geniş coğrafiyada təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşmasına töhfə verir.

**Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri**